# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet N 31 (1287) 30 oktyabr 2025-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


## ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*




*Elçin MEHRƏLİYEV,*
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*


### 1. MAHAL VƏ ONUN PROTOTİPLƏRİ

*Daş-daş əkdik, yurd bitirdik*
*Daş kök atdı, bar gətirdi.*
*Ha qazandıq, çox itirdik,*
*Elə qalan yurd yeridi...*

Bir vaxtlar, dəqiq desəm, 1994-cü (1-ci hissə) və 1996-cı (2-ci hissə) illərdə "Yurd yeri" telepyesini yazanda və Az.TV-nin "Sabah" yaradıcılıq birliyi həmin pyesi tammetrajlı film-tamaşa kimi çəkib-hazırlayanda torpaqlarımızın 20 faizi (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf 7 rayon), o cümlədən, mənim doğulub boya-başa çatdığım Ağdam rayonu və onun Güllücə kəndi işğal altında idi. Maddi, mədəni və insan itkilərimizin sayı-hesabı yox idi. Yerindən-yurdundan didərgin düşmüş yüz minlərlə soydaşımız çadır düşərgələrində qaçqın, köçkün həyatı yaşamağa məcbur olmuşdu. Nə yurd yerlərimizə əlimiz çatır, nə də orada baş verənlərdən xəbər tuta bilirdik. BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrində işğalçı dövlətin özgə torpaqlarından dərhal, qeyd-şərtsiz çıxması tələb olunsa da, Ermənistan saymamazcasına təxribatlarını davam etdirərək, hətta Azərbaycanın dərinliklərinə doğru terror aktları həyata keçirərək vəziyyəti daha da gərginləşdirirdi. Qarabağ münaqişəsi region səviyyəsindən çıxaraq beynəlxalq problemə çevrilsə də, haqq-ədalətdən dəm vuran dövlətlər sanki lal-kar olmuşdular, nə bizi eşidən, nə də həyan olan vardı. Əksinə, post sovet məkanında "sülhyaradıcı missiyasını" yerinə yetirməkdə israrlı olan Rusiya, ermənipərəst Fransa, fars molla rejimli İran kimi dövlətlər tərəfindən təzyiq göstərilir, işğalçı Ermənistanla kompromisə getməyimiz tələb olunurdu. Mən 1994-cü ilin aprelində Azərbaycan Respublikası Ali Sovetinin sədri Rəsul Quliyev başda olmaqla parlament nümayəndə heyətinin Moskva şəhərinə rəsmi səfərini və orada yüksək ranqlı dövlət nümayəndələri (Rusiya xarici İşlər naziri Andrey Kozırev, Rusiya Dövlət Dumasının sədri İvan Rıbkin, Rusiya Federal Nəclisinin sədri Vladimir Şumeyko və b.) ilə keçirilən görüşləri və aparılan danışıqları, habelə həmin ilin noyabrında daha bir palament nümayəndə heyətinin Moskvaya səfər təfərrüatını xatırlayıram. Həmin görüş və danışıqların başlıca mövzusu Qarabağ münaqişəsinin nizama salınması idi. Lakin açıq-aydın görünürdü ki, Rusiya bu istiqamətdə ədalətli addım atmaq fikrindən uzaqdır. Rusiya Müdafiə naziri Pavel Qraçovla görüşdə isə onun tam ermənipərəst mövqe nümayiş etdirməsi, "Təcili atəşkəsə getməsəniz, Yevlaxacan gəlib çıxacaqlar!" -deyə təhdid etməsi əsil həqiqəti ortaya qoydu: Azərbaycan əlbir olmuş qüvvələr qarşısında təklənmiş və məğlub vəziyyətə düşmüşdü.

Ən vacib və təxirəsalınmaz məsələlərdən biri də ölkəmizin 1990-cı illərin sonlarından düşdüyü siyasi çəkişmələr və özbaşınalıq burulğanından xilas edilməsi idi. Həm təcavüzü dayandırmaq, həm də "evin içindəki yanğını" söndürmək xalqın istəyi ilə hakimiyyətə təzəcə qayıtmış Heydər Əliyevin başlıca qayğısına çevrilmişdi. Bir sözlə, dərdimiz dözülməz idi. Acı bağırsaq kimi uzanan müharibə bizi həm hərbi, həm sosial-iqtisadi, həm də mənəvi cəhətdən ağır sınağa çəkmişdi. Amma biz ümidimizi itirmədik, dözməyi bacardıq. Uzun illərin əzab və iztirabı bizi nəinki yurddan ayrı sala bildi, əksinə onunla ruhi-mənəvi bağlantımızı daha da möhkəmlətdi. Biz yurd xatirələrindən təsəlli tapa-tapa, yurd həsrətli nəğmələr qoşa-qoşa Ali Baş Komandanımızın müzəffər yürüş əmrini, torpaqlarımızın işğaldan azad olunacağı günü gözlədik. Yuxarıdakı nisgilli sətirlər də elə həmin illərdə mənim tərəfimdən, adını çəkdiyim "Yurd yeri" televiziya tamaşası üçün yazılmışdı, görkəmli bəstəkarımız, Əməkdar incəsənət xadimi Adil Bəbirovun bəstəsində istedadlı estrada müğənnisi Arzu Rzayev ifa edirdi....



Teletamaşa Ulu Öndər Heydər Əliyevin aşağıdakı sözləri ilə başlanırdı: "Heç kəs saygısızlığa yol verməməlidir, heç kəs unutmamalıdır ki, bizim qarşımızda müqəddəs vəzifə var: Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlarımızı azad etmək və həmin torpaqlardan didərgin düşmüş soydaşlarımızı, vətəndaşlarımızı öz yerinə-yurduna qaytarmaq. Bu bizim ali məqsədimizdir. Qarşımızda duran müqəddəs vəzifədir və bu vəzifə yolunda xalqımız nəyin bahasına olursa-olsun vuruşmalı, çalışmalıdır."

Baxmayaraq ki, Siyasət Ustadı yaranmış vəziyyətdə emosiyalara uymamağa, kəskin psixoloji halətdən çıxıb normal həyatı bərpa etməyə, Qarabağ uğrunda mübarizəni daha təmkinlə, daha ayıq düşüncə ilə davam etdirməyə çağırır və "İşğal olunmuş torpaqlarımızın hamısı azad olunacaq! Siz öz torpaqlarınıza qayıdacaqsınız!" -deyə əmin etməyə çalışırdı, "Yurd yeri"nin qəhrəmanı Mahal kişi və onun prototipləri isə yurd həsrətinə dözmür, tələsir, ermənilərin işğal etdikləri torpaqlarımıza tikanlı məftillərdən çəkdikləri sərhədi dağıtmaq istəyirdilər. Həyəcan və çağırışlarına nə qaçqın düşərgəsində, nə də paytaxt şəhərində məhəl qoyulmadığını görən Mahal kişi az qala bütün cəmiyyətə qarşı üsyan edirmiş kimi və müharibə qada-qorxusunu tamamilə unutmuş kimi, fikir-xəyal içində uzaqda qaralan kəndinə tərəf addımlayaraq belə bir monoloq söyləmişdi: "Uşaq vaxtı babamla bu yolu pay-piyada qohumlara gedərdik. Gedən başı mən qabağa düşərdim, qayıdan başı babam. Bir dəfə gileyləndim: "Ay baba, heç gedəndə belə yerimirsən, qayıdanda sənə çatmaq olmur". Babam dedi: "Gedəndə maraq səni qabağa çəkir, qayıdanda yurd məni". O vaxt bu sözlərin mənasına varmadım. Eh, bəzən adi bir sözün hikmətini başa düşmək üçün bir ömür yaşamaq lazım gəlir. Qocalanda yurduna qayıtmaq, öz torpağında ölmək arzusunda olanlar o qədərdi ki... İnsanınmı, yurdunmu faciəsidir bu? Hansı daha çox itirir? Hansı daha çox günahkardır? Budu ha, nə qalıb daha... Daşına, kəsəyinə qurban olduğum adamı maqnit kimi özünə çəkir. Ehey, ay dədəm ocağı, qaraltına qurban olum, gəlirəm!"

Mahal rolunu Azərbaycan Respublikasının Xalq artisti, Akademik Milli Dram Teatrının görkəmli aktyoru Kamal Xudaverdiyev ifa edirdi, Mahal obrazının prototipi isə çox idi və onlardan biri bütün varlığı ilə yurduna bağlanmış, Qarabağ torpağından bir addım da olsun uzaqlaşmaq istəməyən rəhmətlik atam - Güllücə kənd məktəbində coğrafiyadan dərs deyən Əli müəllimi idi.

*(Davamı 2-ci səhifədə)*

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*

*(Əvvəli 1-ci səhifədə)*

Mahal kişi ümumiləşdirilmiş bir obraz kimi belə insanların tələb və iradəsini, iç yanğısını vulkan kimi püskürən bir ehtirasla ifadə edərək tikanlı məftillərdən yapışıb qırmağa çalışmış, əllərini qanatmışdı. Yeri gəlmişkən, Milli Televiziya ilə nümayiş etdirildikdən sonra "Yurd yeri" teletamaşasının mətbuatda və oxucular arasında rezonans doğurması, jurnalistlər, tənqidçi-ədəbiyyatşünaslar və incəsənətşünaslar tərəfindən təhlil və təqdir edilməsi, yaradıcı heyətinin (ssenari müəllifi Elçin Mehrəliyev, quruluşçu rejisor Bəhram Osmanov, televiziya rejisoru Nadir Diridağlı, əsərin baş qəhrəmanı Mahal rolunun ifaçısı Kamal Xudaverdiyev, Mahalın arvadı Güllü rolunu ifa edən Zemfira Əliyeva və bəstəkar Adil Bəbirov) Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqı ilə "Ədalət" qəzetinin birgə təsis etdikləri "Qoy xalqımız zəfər çalsın!" müsabiqəsinin qalibi elan edildilməsi faktları da xalqımızın Qarabağı işğaldan azad etmək istəkyanğısının ifadəsi idi.

1993-2003-cü illər ərzində Heydər Əliyev vətəndaş həmrəyliyi və ictimai-siyasi sabitliyin yaradılması, təcavüzkarın durdurulması, xarici siyasət strategiyasının hazırlanması, iqtisadi böhranın aradan qaldırılması, Qarabağ probleminə dair konsepsiyanın və hərbi-siyasi strategiyanın işlənməsi istiqamətlərində fundamental işlər gördü. O, "qüdrətli dövlət üçün güclü ordu lazımdır" - deyə, ordu quruculuğuna xüsusi diqqət yetirməklə bərabər, Qarabağ münaqişəsini ən müxtəlif səviyyələrdə danışıqlar aparmaqla - dinc yolla həll etməyə çalışırdı. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin həllinə imkan vermədi və ömür Ulu Öndərə Qarabağın azad ediləcəyi günədək vəfa qılmadı. Bu müqəddəs vəzifə 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin öhdəsinə düşdü.

### 2. CAVAN LİDER VƏ AĞIR MİRAS

Doğrusu, o zaman cavan yaşlarında dövlət başçısı seçilmiş bir liderin Qarabağın qaytarılması kimi çox ağır bir mirasın altından necə çıxa biləcəyini düşünürdüm. Düşünür və bir çoxları kimi tələsirdim. Biz tələsirdik ki, ölkə başçısı qəti qərarlar versin, Milli Ordumuz Qarabağımızı azad etsin. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı isə tələsmir, təmkinini pozmur, qəti addım atmazdan əvvəl Qarabağ həqiqətlərini dünyaya yaymaq, Ermənistanın təcavüzkar simasını açıb ifşa etmək, islahatları davam etdirmək, iqtisadi, siyasi, hərbi cəhətdən dövləti daha da gücləndirmək səylərini artırırdı. Sülh və ədalət tərəfdarı kimi ərazi bütövlüyümüzün dinc yolla bərpası, tarixi ədalətin bərqərar edilməsi zəruriliyini dönə-dönə vurğulamaqla, bu yol baş tutmasa, hərb yolu ilə Qarabağın işğaldan azad ediləcəyi barədə mesajlar, bəyanatlar verirdi. Əlbəttə, uzun illər sosial-iqtisadi sıxıntı, hissi-psixoloji gərginlik içində yaşayan qaçqınlara diplomatik dillə ötürülən, alt qatındakı mənaları açıqlanmayan mesajların məram və mahiyyətini anlamaq da asan deyildi və cənab Prezident hərdən jurnalistlərin "Bəs, düşmənə nə vaxt cavab verəcəyik? Qarabağı nə vaxt azad edəcəyik?" kimi tələb xarakterli suallarına "Biz nəyi, nə vaxt, necə edəcəyimizi yaxşı bilirik!" - deyə cavablandırmaqla xalqı səbrli olmağa və sabaha inamla baxmağa çağırırdı.

Lakin Azərbaycan dövləti münaqişəni dinc yolla həll etməyə çalışdıqca, terrorçu Ermənistan dövləti daha da quduzlaşır, beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərə hörmətsizlik edərək, 1994-cü il 12 may tarixli Atəşkəs sazişini pozaraq iriçaplı silahlardan və artilleriya qurğularından, hətta istifadəsi qadağan edilmiş ballistik raketlərdən əhalinin sıx yaşadığı şəhər və kəndlərimizə qəfil zərbələr endirir, bu üzdən dinc Azərbaycan sakinləri - qadın, qoca, uşaq həlak olurdu. Əzəli ərazilərimiz hesabına dövlət yaratmış və zamanın dolanbaclarında torpaqlarımızı hissə-hissə qoparmaqla onu genişləndirmiş erməni qəsbkarları hər vəchlə əsassız ərazi iddialarından geri çəkilmək istəmir və öz iyrənc məqsədlərinə çatmaq üçün hər cür alçaqlığa əl atırdılar. Bir tərəfdən belə bir təhdid və həqarət, digər tərəfdən Qafqazda maraqlı dövlətlərin münaqişə tərəflərinə - təcavüzkarla müdafiə olunmaq məcburiyyətində qalana ikili standartlarla münasibəti və süstlüyü xalqımızı çıxılmaz vəziyyətə gətirib çıxarmışdı. Necə deyərlər, bıçaq sümüyə dirənmişdi, xalqın səbr kasası daşmaq üzrə idi, bəzən də məğmunlaşıb ümidsizliyə qapılanda, "Ya Qarabağ, ya ölüm!" hayqırtısı ilə yenidən döyüş meydanına atılmaq istəyirdi.

2010-cu il iyunun 18-dən 19-na keçən gecə 22 yaşlı gizir Mübariz İbrahimovun "...Vətənin dar günündə artıq ürəyim dözmür... Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm... Vətən sağ olsun!" - deyə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında təkbaşına təmas xəttinin 1 kilometrlik minalanmış sahəsini keçərək, qəfil həmlə ilə düşməni ağır itkilərə məruz qoyması belə hissi-psixoloji gərginliyin təzahürü idi. Mübarizin heyrətamiz qəhrəmanlığı və fədakarlığı buludlu səmada yeri-göyü titrədən şimşək çaxması təsirini bağışladı, təkcə Azərbaycanda deyil, bütün türk dünyasında geniş əks-səda doğurdu. Vətənpərvərlik hissləri, duyğuları alovlandı, respublikamızın hər yerindən Salyana - əfsanəvi qəhrəmanın doğulub-böyüdüyü ocağa insan seli axışdı. Bu, nəinki Azərbaycan əsgərində, ümumiyyətlə hər bir Azərbaycan vətəndaşında vətənpərvərlik ruhunun, döyüş, qisas hissinin çox yüksək olmasının təzahürü idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Mübariz İbrahimova "Azərbaycan Milli Qəhrəmanı" adının verilməsi, dövlət orden və medalları ilə təltif edilməsi, habelə cəsədinin erməni girovluğundan azad olunub qaytarılması üçün diplomatik danışıqlar aparılması və buna nail olunması ölkəmizin uşağından tutmuş qocasınadək - hamı tərəfindən rəğbətlə qarşılandı.

2016-cı ilin aprelində Ermənistanın cəbhəboyu törətdiyi təxribat onun özünün sarsıdıcı məğlubiyyəti ilə nəticələndi. Düşmən mövqelərinə ağır zərbələr nəticəsində ermənilərin müdafiə xətti yarıldı, 2000 hektardan çox ərazi azad edildi, Lələtəpə yüksəkliyi nəzarətimizə keçdi. Habelə, Cəbrayıl rayonundakı Cocuq Mərcanlı kəndinin, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklərin, Qazaxlar kəndinin və Suqovuşan kəndi istiqamətindəki yolların, Goranboy rayonundakı Gülüstan kəndinin düşməndən azad olunması torpaqlarımızın bütünlüklə geri qaytarılacağına ümidi daha da artırdı. Qanımız qaynadı, yurd yollarına dikilən gözlərimizə işıq gəldi. O məqamlarda atəş bölgəsinə can atan minlərlə vətən övladı sırasında mən də vardım. Dostum, istefada olan polkovnik Sucəddin Abdullayevlə, yaşımızın 65-ə yaxınlaşmasına baxmayaraq, "bəlkə nəyəsə yaradıq" ümid-xahişi ilə Müdafiə Nazirliyinə birgə imza ilə məktub yazıb səfərbərliyə alınmaq istədiyimizi bildirdik. Fəqət, aprel döyüşlərinin ömrü qısa oldu və könüllülərə də ehtiyac duyulmadı.

2018-ci ilin mayında, erməni silahlı qüvvələrinin növbəti təxribatına qarşı həyata keçirilən əməliyyat nəticəsində Şərur rayonundakı Cünnüt kəndinin və bir sıra ərazi və strateji yüksəkliklərin düşməndən təmizlənməsi Azərbaycan ordusunun artıq Zəfər yolunda olmasından xəbər verirdi. Ermənistan Ordusu haqqında uydurulmuş "məğlubedilməzlik" mifi get-gedə öz gücünü itirməkdə idi.

Düşmən bütün bunlardan nəticə çıxarıb işğal etdiyi torpaqlardan dinc yolla çıxmaq əvəzinə, hərbə-zorba gəlməkdə davam edirdi. Bu da qəribə idi ki, Ermənistan hər yaz gələndə, Novruz bayramı günlərində dişlərini qıcırtmağa adət etmişdi. 2019-cu ilin yazında da belə oldu. Ermənistan müdafiə naziri D.Tonoyan martın 30-da Nyu-Yorkda "sülh üçün ərazilər" formatının artıq qəbuledilməz olduğunu elan edərək, "yeni ərazilər üçün yeni müharibə" qənaətini ortaya qoydu. Azərbaycan xalqına acıq verirmiş kimi, Şuşada yallı gedən Ermənistanın Baş naziri Nikol Paşinyan isə həmin ilin avqustunda "Qarabağ Ermənistandır və nöqtə" - deyə sərsəmlədi. Bu bəyanatlar dövlətimizə və xalqımıza hərb yolunu seçməkdən savayı bir yol qoymadı. Və Prezident İlham Əliyevin həmin il oktyabrın 4-də "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasındakı çıxışı zamanı "Qarabağ Azərbaycandır və nida işarəsi" kimi qəti bəyanatı hər bir Azərbaycan vətəndaşını Vətən uğrunda savaşa səsləyən səfərbərlik çağırışına çevrildi.

Biz artıq görür və anlayırdıq ki, Qarabağın azadlığı uğrunda həlledici döyüşlər ərəfəsindəyik. Əmin olurduq ki, cənab İlham Əliyev Qarabağ uğrunda mübarizənin əzmkar bayraqdarına çevrilib və onun bu əzmkarlığı diplomatiya və informasiya cəbhəsində özünü daha aydın göstərir. Birinci Qarabağ müharibəsi zamanı (1988-1994) yalnız cəbhədə deyil, həm də diplomatiya və informasiya müharibəsində uduzan Azərbaycan indi, məhz cənab İlham Əliyevin beynəlxalq hüquqa söykək fəallığı sayəsində üstünlük əldə edir. Biz anlayırdıq ki, onun dünyanın maraqlar ələyindən keçirildiyi və ziddiyyətlərin kəskinləşdiyi bir zamanda yürütdüyü siyasət buz xanalar üzərinndə şahmat oyununa bənzəyir: Zaman və mövcud şərait yalnız əvvəlcədən hansı fiqurla oynayacağını deyil, həm də o fiqurun "sürüşkən xanalar" üzərində nə dərəcədə duruş gətirə biləcəyini düşünüb-hesablamağı tələb edir... İlham Əliyev çevik və balanslaşdırılmış siyasəti ilə bunu bacarır, uzaqgörən siyasi gedişləri nəticəsində hətta bir-biri ilə barışmaq istəməyən əks qütblü dövlətləri belə Azərbaycanın etibalı dostuna və strateji tərəfdaşına çevirir. Ötən onilliklərdə bir çox dövlətlər tərəfindən sıxışdırılan Azərbaycan artıq öz geosiyasi mövqeyini möhkəmləndirə bilib. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Avropa Parlamenti, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı qətnamə və qərarları dəstəklənir. Həmin sənədlərdə isə Azərbaycanın ərazi bütövlüyü tanınır, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu təsdiqlənir, işğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etməsi tələb olunur, qaçqın və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüququ müdafiə edilir. Əlbəttə, Azərbaycana qarşı qərəzli mövqedə qalmaqda davam edən dövlətlər də vardı və biz görürdük ki, Azərbaycan Prezidenti belə dövlətlərin rəhbərliyinə sərt və sərrast cavab verməkdən çəkinmir: "Hər hansı dövlət ermənilərə öz müqəddəratını təyin etmə hüququ vermək istəyirsə, bunu öz ərazilərində yaşayan ermənilərə şamil edə bilərlər."

*(Davamı 3-cü səhifədə)*

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*

*(Əvvəli 2-ci səhifədə)*

Onun bu qətiyyətli mövqeyi Ulu Öndər H.Ə.Əliyevin ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon Sammitindəki çıxışında dediyi: “Dağlıq Qarabağ müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacayıq. Erməni xalqı bir dəfə milli müqəddəratlarını təyin edib, dövlət yaradıb. Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik” bəyanatından qaynaqlanır və reallıqlarla barışmayanlara ümumxalq iradəsini daha təsirli şəkildə çatdırmağa xidmət edir.

Biz görürdük ki, dövlət başçısı istər Azərbaycanda, istərsə də xarici ölkələrdə keçirilən mətbuat konfranslarında, tele-müsahibələrində Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddialarının qanunsuzluğunu, beynəlxalq hüquqa zidd olduğunu ciddi, əsaslı fakt və arqumentlərlə ifşa edir, erməni yalan və dezinformasiya kampaniyasının qarşısını tutarlı cavabları ilə alır.

Bəli, biz görürdük... biz bilirdik... anlayırdıq... Lakin eyni zamanda, Qarabağ uğrunda mübarizəmizin “söz döyüşündən o yana keçmədiyini”, keçdiyi məqamlarda isə hərbi uğurlarımızın məhəllə xarakteri daşıdığını da düşünür və gileylənirdik. Qarabağa yürüş əmrini vermədiyinə görə, “Axı, nə vaxta qədər?” -deyə Ali Baş Komandanımızı qınayırdıq da. Çünki Azərbaycanın münaqişənin siyasi həll yoluna sadiq qalmasını dəyərləndirməyən Ermənistanın təcavüzkar siyasətini davam etdirərək danışıqlar prosesini ləngitməsi, Azərbaycan torpaqlarının işğalının nəticələrini möhkəmləndirmək və onların ilhaqını həyata keçirmək məqsədini güdməsi, bu niyyətlə terror və təxribatlarını davam etdirməsi bizi darıxdırır, təntidirdi.

2020-ci ilin fevralında Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Ermənistanın Baş naziri Paşinyanın bütün iddialarını əsaslı dəlillərlə ifşa etməsi və onu gülünc vəziyyətə salması isə Azərbaycan Prezidentinin artıq öz xilaskar qılıncını sıyırması və Ermənistanın hay-küyçü Qarabağ ideologiyasının tam iflası təsirini bağışladı. Biz artıq daha mühüm xəbərlər eşidəcəyimizi, 1 baharın yetişməsindən əvvəlki iliq havaları hiss etdiyimiz kimi hiss edirdik.

2020-ci ilin 12-16 iyul günlərində Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində mövqelərimizə qəfil hücumu nəticəsində 12 azərbaycanlı həbçi və 1 mülki şəxsin qətlə yetirilməsi, o cümlədən, Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru Polad Həşimovun öldürülməsi düşməndən qisas hissinin apogeyə çatmasına və Qarabağın azadlığı uğrunda müzəffər yürüşün başlanmasına növbəti və daha güclü təkan verdi. İndi hər bir Azərbaycan əsgərinin döyüş ruhu kükrəmişdi, özündə Mübariz İbrahimov, Polad Həşimov əzmi duymaqdaydı. On minlərlə insan - gənclər, ehtiyatda olan hərbi qulluqçular, müharibə əlilləri və veteranlar Bakıya yürüş edərək Ali Baş Komandana və Ordumuza həmrəylik nümayiş etdirir, səfərbər olmaq istədiklərini bildirirdilər. Lakin Azərbaycan Ordusu düşmənə növbəti dəfə sarsıdıcı zərbə vurmasına baxmayaraq, bu döyüşlər də sülh danışıqlarına şans vermək naminə davam etdirilmədi.

Və nəhayət, 2020-ci il yayın sonlarında Ermənistan ordusunun növbəti təxribatı hərbi-siyasi həyasızlığın son həddi kimi Azərbaycan dövlətini ümumxalq iradəsini ifadə edərək “Sənə qarşı savaşanla savaş!” qərarını verməyə vadar etdi. Ali Baş Komandan xalqa müraciət edərək düşmən təxribatını “erməni faşizminin növbəti təzahürü” adlandırdı. “Biz öz torpaqlarımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!”; “Heç bir qüvvə bizi durdura bilməz. Heç bir qüvvə bizim qarşımızda dayana bilməz. Biz qüdrətli orduya malikik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” - kimi sözləri ilə zəfər qazanacağımıza əmin etdi. Onun qısa və dərin mənalı sözləri, məğrur duruşu, danışıq ruhu, təmkini, qətiyyəti azadlıq uğrunda mübarizəyə səfərbərlik hissi və şüuru aşılayır, insanların qəlbində tam qələbəyə inam çırağı yandırır, eyni zamanda ölüm-dirim çarpışmasında, qəddar düşməndən fərqli olaraq, humanist mövqe tutmağa dəvət edirdi.

Beləliklə, Azərbaycan ordusu BMT Nizamnaməsinin 1-ci bəndinə müvafiq olaraq özünümüdafiə hüququndan istifadə edib əks hücum əməliyyatına başladı. Yeni strategiya və taktika tətbiq edərək, yeni növ silahlar işlədərək düşmənin illərlə qurub möhkəmləndirdiyi hərbi istehkamları darmadağın etdi, erməni əsgərlərini kütləvi şəkildə qovaraq fərarilər dəstəsinə çevirməyə nail oldu. Sentyabr ayının 27-dən başlayıb noyabr ayının 10-da başa çatan 44 günlük “Dəmir yumruq” əməliyyatı nəticəsində külli-Qarabağımız düşməndən təmizləndi, əzəli torpaqlarımız, müqəddəs yurdlarımız, ocaqlarımız azadlığına qovuşdu. BMT-nin 30 il kağız üzərində qalan 4 qətnaməsi Azərbaycan dövlətinin və xalqının öz gücü, öz qüdrəti ilə yerinə yetirildi. Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Bu tarixi qələbə Azərbaycan xalqının sarsılmaz birliyi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək hərbi-strateji məharəti, polad siyasi iradəsi, Azərbaycan ordusunun cəsarət və rəşadəti sayəsində mümkün oldu.




Heyrətamiz cəhətlərdən biri yürüşün ədalət və şərəf prinsiplərinin gözlənilməsi şəklində başa çatdırılması idi. Zəfər yürüşü erməni vandallarından fərqli olaraq, beynəlxalq humanitar hüququn müddəalarına o dərəcədə yuğun şəkildə aparılmışdı ki, nə erməni qəsbkarlarının, nə də onların havadarlarının yalançı hay-həşirinə əsas yeri qoyulmamışdı - dinc əhali tələfatı, mülki obyektlər və infrastruktur dağıntısı barədə qaraqışqırıq üçün bir dənə də olsa fakt ələ verilməmişdi. Ermənilər isə Gəncəni, Bərdəni, Tərtəri, Goranboyu, Naftalanı və dinc əhalinin yaşadığı başqa şəhərlərimizi, kəndlərimizi ağır silahlardan atəşə tutub yüzlərlə günahsız azərbaycanlını qətlə yetirməklə öz miskin xislətlərini bir daha nümayiş etdirdilər.

**2025**

### YAZIÇI ELÇİN MEHRƏLİYEVƏ MƏKTUB

*Əzizim Elçin, əlbəttə, bu kiçik imkandan nə qədər sıxılmış düşüncələrlə danışsam da, sənin ədəbi mühitimizdəki istər çox tanınmış alim və istedadlı bir yazıçı kimi mövqeyini və yerini qədərincə göstərə bilmərəm. İstər ədəbiyyatşünaslığımızın, ədəbi tənqidimizin inkişafına təsir göstərən dəyərli tədqiqat əsərlərin Qarabağ mənəvi mühitinin etnoqrafik istiqamətdə tədqiqatlarını ərsəyə gətirən ziyalı mövqeyin çox aydın və deyərdim ki, parlaqdır, istərsə də, yazıçı kimi də bir qərinəlik dövrün təbiətini əks etdirən hekayələrin, povestlərin, ən başlıcası, maraqlı romanların müəllifi kimi Azərbaycan oxucusunun yaddaşında mənəvi diqtə sahibisən. Bu yazında da - “Mən, mənim qəhrəmanım və yurdum” xatirə əsərində də müharibə psixologiyasını, müharibə dövrü insanının ağrı-acılarını dəqiq həyati detallarla sözə gətirməyə çalışmısan. “Yurd yeri” tamaşası mənim yaralı yerimdir. Axı bu tamaşa ölkənin ən üstün teatrlarında bütün işğal dövrü təkrar-təkrar göstərlmiəliydi. Həmin əsərin bədii televiziya filmi variantı da çox uğurlu alınmışdı. Əslində bu əsər Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin mənəvi-psixoloji köklərini araşdırmaq baxısından əvəzsiz bədii sənəddir.*

*Yeri gəlmişkən, burada Mahal kişinin faciəsini xatırladan həyatımla bağlı bir məqamı da yada salmaq istərdim. Bilirsən ki, Qarabağ tərəkəmələrinin, xüsusilə, Cəbrayıl, Hadrut (Ağoğlan) tərəkəmələrinin yayı Dərələyəzdə keçərdi. Yadıma gəlir, uşaq olsaq da həyata, təbiətə marağımız köhlən at kimi içimizdən ətrafa boylanırdı. Gorusdan keçəndə bizə deyirdilər ki, başınızı əyin, erməni uşaqları daş atar. Həqiqətən də beləydi. Qansızlıqla daşa tutulardıq. İndi düşünürəm ki, sonralar Qarabağ separatçılarının əsl simalarını gördük. Onlar 60-cı illər erməni uşaqlarının tör-töküntüləri idi. Mahal kişi “Yurd yeri”nin çox əzəmətli obrazıdır. O, öz yurd yerində əyilməyi, gizlənməyi özünə sığışdırmır. Bütün gücü ilə haqsızlığa qarşı savaş açır. Və birinci növbədə o, bu savaşı öz övladlarına qarşı açır. Yaxud “90-cı illər” adlandırdığın mənim “Qara kəl” adını daha uğurlu hesab etdiyim əsərin də unudulmazdır. Sən müharibənin başlanğıcından hadisələrin içəindən çıxış edirsən. Bu da onu göstərir ki, həyati müşahidələrin təkcə yazıçı fantaziyasına, sənətkar təxəyyülünə güvənmir. Bəli, sən prosesləri dəqiq müşahidənlə yaddaşına yığmısan. Sadəcə, həmin müşahidələri sənətkarlıqla bişirib oxucu aləminə gətirməyinlə zamana olan borcunu ödəmisən.*

*Çoxlarına elə gələ bilər ki, müharibə qurtardı, qonşu xalqlar arasında sülh bağlandı, bütün ağrı-acılar keçmişdə qalar. Bunu da deyirlər ki, insanlar keçmişi tarixdən çox bədii əsərdən daha yaxşı mənimsəyirlər. Bu mənada istedadla sənətkar səriştəsilə yazılmış “Yurd yeri” əsəri yaddaşımıza zaman-zaman tarixi həqiqətləri diktə edəcək.*

*Söz çoxdur, yazmağa da kifayət qədər əsas var. Hələlik belə.*

*Əli Rza XƏLƏFLİ*
*29.10.2025*